# Şeyx Sənan əsatiri



*İsgəndər ATİLLA,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*dosent, Əməkdar müəllim*

*(Əvvəli ötən saylarımızda)*

Mən faicədə müstəsna əhəmiyyətə malik olan bir məsələnin üzərində də dayanmaq istəyirəm. Şeyxlər Mədineyi-Münəvvəri tərk etdikdən sonra öncə Turan və İrana, sonra Hindistana səfər etmək fikrində bulunurlar. Şeyxlərin bu səfərlərdə məramları dünyanı nura qərq edən və mənəvi bir günəş olan islam dinini cahanda yaymaq və geniş təbliğ etməkdir. Şeyx Hadi bu səfərlərin məqsədini belə izah edir:

Nə demək istəyirəm? Demək istəyirəm ki, möhtərəm şairimiz zamanını qabaqlayır, yüz il bundan əvvəl yazdığı əsərdə islamın bütün dünyada geniş yayılması, nəşr edilməsi ideyasını irəli sürür. Bu ideya Qurani-Şərifdə də öz əksini tapmışdır. "İslam missionerləri" təsadüfən Hindistana səfər etmirlər; təsadüfən Məhəmmədin dininin bütün yer üzərində yayılması fikrini söyləmirlər. Əgər biz bu gün dünyaya nəzər salsaq, islamın xristian ölkələrində sürətlə yayıldığını görərik. Bu da həmin ölkələrin ruhanilərini, rəhbərlərini, adi insanları narahat etməyə bilmir. 1919-cu ilin martında Yeni Zellandiyada bir terrorçunun məscidlərə hücum edib, əlli nəfər müsəlmanı qətlə yetirməsi də təsadüfi deyildir. Bu, Avropada islamaxobiyanın açıq təzahürüdür.

Sovet dövründə və müstəqillik illərində Cavidin "Şeyx Sənan" faciəsi haqqında çox yazılmışdır. Mən ədəbiyyatşünas Hənəfi Zeynallının 1926-cı ildə "Maarif və mədəniyyət" dərgisində çap etdirdiyi "Şeyx Sənan" haqqında mülahizələrim" məqaləsini (1926-1927), Zahid Əkbərovun "Hüseyn Cavidin "Şeyx Sənan" faciəsi" monoqrafiyasını (1977) və Şəhla Abdullayevanın "Azərbaycan ədəbiyyatında "Şeyx Sənan" mövzusu" əsərini (2015) daha sanballı tədqiqat əsərləri hesab edirəm. Zahid Əkbərov Şeyx Sənan mövzusunu daha çox Şərq ədəbiyyatı, Şəhla Abdullayeva Azərbaycan ədəbiyyatı kontekstində tipoloji və müqayisəli-tarixi metod əsasında araşdırmışlar. Hər iki müəllif Cavidin faciəsini yüksək qiymətləndirmişdir. Lakin Ş.Abdullayeva bəzi yanlışlıqlara yol vermişdir. İddia etmişdir ki, guya Şeyx Sənan Zəhranı sevir. Əksinə, Zəhra Şeyx Sənanı sevir. Əgər o, Zəhranı sevsəydi, onda nə üçün Ərəbistanı atıb, Xumarın dalınca Gürcüstana gəlirdi. Dramaturq faciədə bunu aydın şəkildə ifadə etmişdir. Sağlığında məsələ mübahisələrə səbəb olarkən, önün özü buna aydınlıq gətirmişdir.

Ş.Abdullayeva əsərin başqa bir yerində iddia etmişdir ki, guya Dərviş Quranı, Zəburu, İncil və Tövratı "puç bir şey" sayır. Əslində faciədə bu başqa cürdür. Dərvişin məşhur monoloqundan həmin beytə nəzər salaq.

Göründüyü kimi, sufi Dərviş həmin səmavi və müqəddəs kitabları "puç" və "əfsanə" saymır, əksinə, onların təfsirini, şərh və izahını zor sayır ki, bu da təbiidir. Digər bir tərəfdən, islamı, islamın tarixini gözəl bilən və Quranı dəfələrlə oxuyan şairin özü belə bir yanlışlığa yol verə bilməzdi.

Ş.Abdullayeva monoqrafiyada başqa bir səhvə də yol verir. Yazır ki, guya dramaturqun mövzu üzərində işlərkən hansı mənbələrdən istifadə etdiyini Zahid Əkbərov aşkara çıxarmışdır. Halbuki bunu ilk dəfə aşkara çıxaran Hənəfi Zeynallı olmuşdur. O, həm də faciənin ilk görkəmli tədqiqatçısıdır.

## Hənəfi Zeynallı və Hüseyn Cavidin "Şeyx Sənan" mənzum faciəsi

Hüseyn Cavidin "Şeyx Sənan" əsəri Azərbaycan ədəbiyyatında mənzum faciənin ilk klassik nümunəsidir. O, mənzum dramaları ilə Azərbaycanda poetik teatrın əsasını qoymuşdur. Əruz və heca vəznlərini ilk dəfə Azərbaycan dramaturgiyası və teatrına gətirmiş, poetik imkanlarından ustalıqla istifadə etmişdir. Faciə üzərində uzun zaman düşünüb-daşınmış, çalışmış və bədii, fəlsəfi-estetik baxımdan ədəbiyyatımıza möhtəşəm bir sənət əsəri hədiyyə etmişdir. Faciənin ilk variantları görkəmli ədəbiyyatşünas Əziz Şərifin gözləri qarşısında meydana gəlmişdir. O, 1914-cü ildə bu haqda belə yazmışdır: "O, (H.Cavid - İ.A.) təzə yazmaqda olduğu "Şeyx Sənan" dramından mənə parçalar oxudu. Cavid istədiyini yerinə yetirə bilsə, ədəbiyyat aləmini sarsıdacaq bir əsər yaradılacaqdır. Mənə oxuduğu parçalar çox dərin təsir bağışlayır. Bu gün (8 oktyabr 1914 - İ.A.) mən bir daha onun böyük talanta malik olduğunu təsdiq edirəm."

O, faciəni yazıb bitirdikdən sonra 1915-ci ildə bəzi parçalarını "Qurtuluş" jurnalı və "Yeni iqbal" qəzetində, 1916-cı ildə tam şəkildə "Açıq söz" qəzetində çap etdirir. 1917-ci ildə kitabça şəklində nəşr etdirir. 1916-cı ildə Əziz Şərifə yazdığı bir məktubda əsərin vaxtsız nəşr etdim. Daha münasib vaxta buraxmalıydım, çünki o nəşr edildiyi günlərdə siyasət aləmi həyəcanlı dəqiqələrdə keçirirdi. (Şair burada birinci cahan hərbini nəzərdə tutur - İ.A.) Zatən bu bir qanundur: siyasət rol oynarkən, ədəbiyyat susar. Təbii susmalıdır da..."

Sovet hakimiyyətinin ilk illərində "Şeyx Sənan" faciəsinin qəzet və kitab şəklində (1917) çapı artıq əldə idi. Çox güman ki, H.Zeynallı faciə haqqında məqalə yazarkən 1926-cı il nəşrindən istifadə etmişdir. Çünki 1915-1916-cı il çapı ilə 1917-ci il çapı arasında müəyyən fərq vardır.

O, faciənin təhlilinə geniş bir girişlə başlamışdır. Caviddən əvvəl həmin mövzuda yazılmış bəzi əsərləri tarixi-müqayisəli metod əsasında və tipoloji baxımdan araşdırmışdır. Azərbaycan türk şairi Cavidin əsərinin özünəməxsus bəzi xüsusiyyətləri və məziyyətlərini ilk dəfə geniş formada tədqiq və təhlil etmişdir. Mövzu ilə bağlı daha dərin araşdırmalar aparmaq üçün Leninqrada (indiki Sankt-Peterburqa) getmiş, Leninqrad Darülfünunun kitabxanasında araşdırmalar aparmışdır.

Araşdırmalar zamanı onun əlinə bir neçə əlyazma və kitab keçir. Ancaq "Şeyx Sənan" dastanının Qafqaz versiyasına və Tiflis variantına təsadüf etmir. Hüseyn Bayqaranın müəllifi olduğu və fars dilində yazdığı kitabda Şeyx Fəridəddin Əttarın aşağıdakı hekayələrinə rast gəlir: "Dər bəyani-hüsni-həqiqi və eşqi-təhqiqi", "Zikri-hərrəti-Şeyx Mövsüf və cəvani-məşuqi-an həzrət" və "Zikri-həzrəti-Şeyx Sənan əleyhürrəhmə". Hekayələrlə tanış olduqdan sonra belə bir nəticəyə gəlir ki, sonuncu hekayənin Hüseyn Cavid üzərində təsiri olmuşdur.

Şeyx Əttarın həmin hekayələri "Şeyx Sənan" əsatirinin Rum versiyasına aiddir. Onun qısa məzmunu belədir: Şeyx Sənan qeyrip-adi qabiliyyətə malikdir. Yanına gələnləri nəfəsilə sağaldır. Bir gün röyasında Ruma səfər edir. Röyada gözəl bir ruhanisifət tərsa qızı görür. 400 müridi başına toplayıb yuxusunun izilə Ruma yola düşür. Nəhayət, Ruma çatır. Burada ruhanisifət bir xristian qızına rast gəlir. Onu gördükdə gözləri qamaşır. Tərsa qızın gözəlliyi Şeyxin əqlini deyil, bütün etiqadını əlindən alır, din evinə rixnə salır. Eşqin adından yanan Şeyx, dinindən, imanından əl çəkir. Müridləri nə qədər ona nəsihət verirlərsə, faydası olmur. Qız onun sərməst olduğunu görüb səbəbini soruşur. Şeyx ona eşq elan edir. Qız onun qocalığını yadına salır və qarşısında bir neçə şərt qoyur: bütə səcdə etməlisən, çaxır içməlisən, Quranı yaxmalısan, donuz otarmalısan, kilsəyə getməlisən. Qız onu kilsəyə aparır. Bunu görən müridlər (sufilər) fəğan qoparırlar, lakin faydası olmur. Şeyx çaxır içməyə razı olur, ancaq qalan şərtlərə əməl edəcəyinə söz verir. Çaxır içdikdən sonra ağlı başından çıxır. Xirqəsini yandırır, zünnar həlqəsini boynuna keçirir. Bir il donuş otarır. Müridləri onu yalnız buraxmır, arxasınca düşüb onu izləyirlər. Şeyx onları qovur. Müridlər onu Rumda qoyub, Kəbəyə qayıdırlar. Yolda Sənanın bir dostuna rast gəlirlər. Əhvalatı ona danışırlar. Müridlər onun dostu ilə geri qayıdırlar. 40 gün gecə-gündüz yeyib-içmir, Sənanı yolundan çöndərmək üçün Allaha dua edirlər. Duaları müstəcəb olur. Gecə müridlərdən birinin yuxusuna Məhəmməd peyğəmbər girir. Peyğəmbər ona gülümsəyir və deyir: "Mən Şeyx Sənanın qəlbində olan qübarı götürdüm, o, yenə islam olacaqdır." Bu yuxudan sonra Şeyx tutduğu işin peşmançılığını çəkir və ağlayır. Kəbəyə dönmək istədikdə tərsa qızı onun ardınca düşür, ayrılığa dəyərək can verir. Şeyx onu dəfn etdikdən sonra Kəbəyə qayıdır.

H.Zeynallı farsca yazılmış həmin əsərdən altı misranı türkcəyə tərcümə etmişdir. Onu olduğu kimi oxucuların nəzərinə çatdırıram.

Şeyx Əttarın mənzuməsini Cavidin mənzuməsilə müqayisə edən ədəbiyyatşünas yazır: "Şeyx Əttarın mənzuməsini oxuyanların bir parası qanadlanıb sevinəcəklər ki, - aha! Cavidin eybi açıldı! Cavidin "Şeyx Sənan"ı öz əsəri deyilmiş. Bəlkə ondan çox əvvəl dillərdə dastan olmaqla bərabər, bir böylə müfəssəl mənzumə varmış ki, Cavid onu alıb mənzum bir pyes halına salmışdır. Bir çoxları burada Cavidin yaradıcılığını büsbütün inkar etmək fikrinə düşdüyümüzü zənn edəcəkdir. Xeyr!.."

O, ədəbi təsir məsələsindən danışarkən Rum və Tiflis versiyalarının dramaturq üzərində təsirini təbii hesab edir. Bununla belə, Cavidin yaratdığı Şeyx Sənan obrazı ilə Şeyx Fəridəddin Əttarın yaratdığı Şeyx Sənan obrazı arasında dağlaq qədər fərq görür və deyir: "Şeyx Əttarın Sənanı açıq-açığına bir uydurma, cansız bir simadır. Onun beş yüz müridə rəhbərlik etməsi, əlli-altmış yaşında eşq sevdasına mübtəla olması, ibadət üçün Məkkəyə dönməsi, kilsəyə getməsi onun heç bir çarpışmaya davam gətirməyəcəyini göstərir. Bu Şeyx Sənan doğrudan da mədrəsələr küncündən çıxmış, fars psixologiyalı, damağı kiflənmiş, içi çürümüş, puçlaşmış bir şəxsdir."

H.Zeynallı mülahizələrində hissə qapılsa da, sözlərində həqiqət var. Cavidin yaratdığı Şeyx Sənan obrazı mütəfəkkir bir filosof, otuz yaşında bir alim, arif və aşiqdir. Turanda doğulan, İranda təhsil alan, Ərəbistanda kamala çatan bir islam şeyxi və mübəlliğidir. O, təhsil alıb kamala çatdıqdan sonra hücrələr küncündə qısılıb qalmır. Eşq və məhəbbət aləmindən xəbərdar olan bir aşiq-filosofa çevrilir. "Gürcü qızı" ilə görüşərkən şəxsi simasını itirmir. Qarşısına çıxan əngəllərə müti qul kimi baş əymir, məğrurluq və vüqarını qoruyub saxlayır; amalı uğrunda mübarizə aparır. H.Zeynallı söyləmişkən, Cavidin Sənanı ilə Şeyx Əttarın Sənanının arasında bir takım hekayə qismlərinin tuş gəlməsi ikinci dərəcəli məsələdir. Şərq və Qərb ədəbiyyatında məzmunca və formaca eyni mözvu və əhvalat haqqında neçə-neçə sənətkarın əsərlər yazmasına sıxsıx təsadüf etmək buna misaldır.

Cavidin bir böyüklüyü də ondadır. O, dastan şəklində olan əhvalatdan monumental bir mənzum faciə yaratmışdır. Tənqidçi H.Zeynallının sözlərilə desək, Cavidin "Şeyx Sənan"ı nə Mirzə Fətəlinin, nə Nəcəf bəy Vəzirovun, nə də Əbdürrəhim bəy Haqverdiyevin yazdıqları əsərlərdən deyildi. O, ədəbiyyata gəlişilə milli dramaturgiyamıza yeni ab-hava, xarakterlər, mövzu və problemlər gətirdi, fəlsəfi dramanın əsasını qoydu. Dramaturqun yaratdığı Şeyx Sənan obrazı dramaturgiyamızda ondan əvvəl yaradılmış şeyx, molla və din xadimlərinin obrazı deyildi. "Cavid Şərqin boynuna sarılmış tüfeylilərin iç üzünü açıb göstərirdi", lakin o, Şeyx Nəsrullah da deyildi. O, "üləma" zümrəsinin ön səfində gedən bir "gürcü qızının" qarşısında bütün "köhnə fəlsəfəni" atır, onun əl-qolunu bağlayan din iplərini qırıb, təbii həyata qovuşur. Bütün keçmiş ənənələrə zərbə vurur və həqiqi dini, həqiqi Tanrını mərifətdə görür. Ətrafını almış Şeyx Mərvanlar və Şeyx Nəimlərin arasında dinsizliyi "həp Kəbə və imandan yüksək durmaq, bir an içində olsa belə, yenə üsyandır. Və bu nöqtədə Cavidin Sənanı üsyançıdır. Fəqət bu üsyançı uzaq baxışdan iradəsiz görünsə də, məqsədinə çatmaq yolunda tərəddüdsüz olduğu üçün

# və Hüseyn Cavid

Cavid “Şeyx Sənan” əsatirinin süjetini yerləşdirmişdir. Məhz bu səbəbdən din və imanını təbii duyğular yolunda fəda edən Sənan yetişməkdə olan Azərbaycan ziyalılarına xoş gəlirdi. H.Zeynallının məqaləsində bu məsələyə xüsusi əhəmiyyət verməsi təsadüfi deyildir. Onun fikrincə, əski dindarlığa qarşı olan və ürəklərdə o zamana qədər gizli qalan nifrətlər Şeyx Sənanın diliylə, Cavidin qələmiylə vətəndaşlıq hüququ almaqda idi və bu səbəbdən cəmiyyət tərəfindən sevilirdi.

Yeri düşmüşkən deyim ki, faciədə müasirlik ruhu güclüdür. İslam dünyasında multikultural dəyərlərə və dini dözümlülüyə tarix boyu böyük əhəmiyyət verilmişdir. Müsəlmanların dini kitabı olan Qurana bu mənada nəzər salmaq kifayətdir. Cavidin hələ yüz il bundan qabaq bu problemi qaldırması, aktuallaşdırması, təbliğ etməsi, ona ümumbəşəri dəyər kimi yanaşması təqdirəlayiqdir.

H.Zeynallı məqaləsində başqa bir ciddi və aktual problemə də toxunur. Bu da “Şeyx Sənan”da əxlaq və bunun cəmiyyətin həyatına təsiri məsələsidir. O hesab edir ki, əsərdəki əxlaq dərəcəsi cəmiyyət həyatında iştirak edən qüvvələrin (insanların) əxlaqına təsir göstərir. Faciənin qiymətli cəhətlərindən birini bunda görən cavidşünas problemə daha geniş geniş aspektdə yanaşır. Əsərdəki müasirliyi XX əsrin əvvəllərində Qafqazda, Azərbaycan və Türkiyədə baş verən ictimai-siyasi hadisələrlə, “Türkləşmək, islamlaşmaq və müasirləşmək!” şüarı ilə əlaqələndirir. Cəmiyyətdə mövcud olan sinifləri üç qrupa bölür: islamçılar, türkçülər, proletarçılar. Milli məsələnin ortaya atılması və gerçəkləşdirilməsində Əli bəy Hüseynzadə, İsmayıl bəy Qasprinski, Ziya Gökalp və M.Ə.Rəsulzadənin xidmətlərini xüsusi qeyd edir. Millətçiləri iki qrupa bölür: fəal millətçilər, passiv millətçilər. Cavidi “ikinci növ passiv millətçi” sayır. Fikrini əsaslandırmaq üçün onun 1907-ci ildə “Füyuzat” jurnalında çap etdirdiyi “Hali-əsəf iştimalını təsvirdə bir ahi-məzlumanə” tərcibəndini misal çəkir və yazır: “Cavidin millətçiliyindən “Şeyx Sənan”da açıq surətdə yalnız Sənanı əslən turanlı etməkdir. Yəni Sənanı farslıqdan çıxarıb türk qılıqlı, türk qafalı etmək, onu türkləşdirməkdir. Ruhən millətçiliyi, türklüyü oxşayan, Cavidin böylə cəsur bir addım ataraq din tərəfdarlarına zərbə endirməsi zamanındakı cəmiyyət üçün sevimli olacağı təbii idi.”

Tənqidçi faciənin süjet və kompozisiyasında - poetikasında heç bir çatışmazlıq, nöqsan görməmişdir. Bütün dramatik hadisələrin Şeyx Sənanın ətrafında qurulduğunu xüsusi qeyd etmişdir. Düşünmüşdür ki, əsərin məzmunu açıldıqca, səhnələr dəyişdikcə, Şeyx Sənanın əzəmətli obrazı daha parlaq görünür. O, səhnədə olmadıqda belə “kölgəsi görülür, səsi duyulur”. Sənan başda olmaqla, obrazlar öz sözü, hərəkətlərilə xarakterlərinin mahiyyətini açırlar. Baş qəhrəmanın başına gələn və gətirilən hadisələr oxucu və tamaşaçını maraqlandırır, onları “xələcan və həyəcan içində saxlayır”.

H.Zeynallının fikrincə, pyesdə iki qüvvət çarpışır. Onlardan biri din, ikincisi eşq-sevgi qüvvətidir. Əsərdəki dialoq və monoloqlar diqqəti xüsusilə cəlb edir. Onlar gərgin şiddətlidir. “Şəxsiyyətlər arasında mənalı, kinayəli rişxənd, istehza, tələş və heyrətlər şimşək misalı simalarda oynayır. Hər bir monolo təbii olaraq ya müəyyən emosiya, zövq nəticəsində, yaxud bir həyəcan dolayisilə meydana gəlir.” Dramaturq əsərdə əsas saydığı və saymadığı nöqtələrə xüsusi diqqət yetirir. Bütün dramatik gücünü, bütün üslub və lisan, psixolojik boyalarını əsas saydığı obrazlar ətrafında cəmləşdirir. “İblis” istisna olunmaq şərtilə, “Şeyx Sənan” Cavidin bütün digər əsərlərini kölgədə buraxmış olur və s.

Sənətkarlıq məsələlərini bu kimi ustalıq və peşəkarcasına incələməkdə çətin ki, H.Zeynallı ilə mübahisə etmək istəyən ədəbiyyatşünas tapılsın. O, sözünə davam edərək yazır: “Dramanın poetikasında olan xüsusiyyət tələb edir ki, səciyyə (xarakter) də vəhdət, yəni bütünlük, yığcamlıq olmaqla səhnələrin inkişafında qənaət hasil edilmiş olsun. Yəni dramanın özünəməxsus qayda ilə az-çox mühüm rol oynayan xarakteri aydınlaşa bilsin. Bu cəhətdən isə “Şeyx Sənan” axsaqdır. Faciə potensiya halında da bulunan bir bədii drama deyildir.”

Sual olunur: bəs nədir? Biz bu məsələdə onu haqlı hesab etmirik. O, bəzən özü öz fikirlərinin əksinə gedir. Üstəlik fikirlərini əsaslandırmaq üçün ciddi arqumentlər gətirmir. Xumarı xarakter kimi qəbul etmir, Şeyx Hadini naqqallıqda suçlayır və s. Onun havadan asılı qalan mülahizələrilə çətin razılaşmaq olar. Mən hesab edirəm ki, dramaturq obrazların xarakterik xüsusiyyətlərini son dərəcə diqqətlə izləmiş, onların daxili aləmini bir alim kimi öyrənmişdir. Tənqidçinin iddia etdiyi kimi, Xumarı bir xarakter kimi deyil, bir obraz kimi yaratmışdır və s. Nəticə etibarilə faciə potensiya halında bulunan bir dramadır.

Tənqidçi-ədəbiyyatşünas romantik bir ruhda və romantizmin estetikası əsasında yazılmış bir əsərdə naturalistik səhnələr müşahidə etmişdir. Belə səhnələr əsərdə gerçəkdən var. Lakin belə səhnələrə pyesdə yol verilmiş “nöqsan kimi baxmaq” olmaz. Mənim fikrimcə, həmin səhnələr dramaturji cəhətdən ölçülüb-biçilmişdir. Bu, dramatik hadisələrə bir əlvanlıq, canlılıq və bədii pafos gətirir, tamaşaçılarda xoş əhval-ruhiyyə yaradır. O, Gürcüstanda al-əlvan geyinmiş çocuq və dəliqanlıların səhnəsini misal gətirərək yazır: “Şair burada bütün-bütün bir an içün şeyxləri buraxıb, təbii hissiyyata yol açır, qayət şan-şətir bir üsluba keçir.” Gerçəkdən həmin səhnədə naturalistik əlamətlər var. Fikrimcə, bu səhnə son dərəcə canlı və təbii səhnədir. Dramaturq bu cür “naturalistik” səhnələrdən “Topal Teymur” və “Xəyyam” pyeslərində də istifadə etmişdir. Ümumiyyətlə, bu cür səhnələr dramaturqun əsərlərində bir üslub xüsusiyyəti kimi diqqəti cəlb edir.

H.Zeynallı hesab edirdi ki, Cavid “Dəli Dərvişi” ortaya çıxarmaqla simvolist olmaq istəyir; Tiflis kintosu Serğonun türkü oxuması qabil deyildir və s. Məncə, qabildir, çünki türklərin tarixən gürcülərin ədəbiyyat və incəsənətinə təsiri olmuşdur və bu gün də var. Milliyyətcə gürcü olanların arasından aşıqlar çıxmışdır. Həmin aşıqlar saz çalıb “Koroğlu” dastanından nəğmələr söyləmişlər. Mən 1960-cı illərdə Tiflisdə olarkən hansı mağazaya girdimsə, orda radio və radio qəbuledicilərdə Azərbaycan mahnı və musiqisini eşitdim. Bunun səbəbini soruşdum. Bir satıcı qız gülümsəyərək dedi: “Biz sizin musiqini çox sevirik.” Demək istəyirəm ki, əsərdə bir gürcü kintosunun türkü oxuması maraqlı olduğu qədər də, təbii və cəlbedicidir.

Ədəbiyyatşünasın fikrincə, Cavid “Şeyx Sənan” mövzusunu təsadüfən seçməmişdir. Mövzunun seçilməsində irsi tərbiyyənin rolu, yəni onun ruhani ailəsindən çıxmasının təsiri olmuşdur. Faciədə müasirlik ruhunun qüvvətli olmasına məxsusi əhəmiyyət verən müəllif, onun poetikası haqqında maraqlı fikirlər söyləmişdir. Ona görə pyesin quruluşundakı yenilik o zamana qədər Azərbaycan və ümumtürk ədəbiyyatında görünməmişdir. Əsər o zamankı cəmiyyətin “təhyic” cərəyanına, yəni xalqın məzaqinə gəldikdə, deməliyik ki, dramamturq “ruhanilik içində çürüntü və yaprantıları tamamilə meydana atmaqla mollalığa qüvvət vermiş və bir az da irəli gedərək kütlə üzərindəki hakimiyyətini itirmiş “üləməyi-din” arasındakı “şübhə” ilə “vəsvəsə” meydana gəldiyini və bütün bunların sağlam və təbii həyat qarşısında nə qədər sönük, nə qədər köksüz olduğunu göstərmiş oldu.”

- Cavid “Şeyx Sənan” faciəsilə nə demək istəmişdir? - H.Zeynallı bu suala da cavab verməyə çalışmışdır. Onun fikrincə, müəllif məhəbbəti təbii (bioloji) bir fakt olduğu üçün onun heç bir din, heç bir milliyyət ilə əlaqəsi olmadığını o zamankı mühitin nüfuzu altında olaraq tamaşaçılara sezdirmək istəmişdir. “Şeyx Sənan”da Cavidə məxsus bir inqilabçılıq görünür. Bu “inqilab” bir çoxlarının düşündüyü və individualist anarxistcəsinə meydana atdığı “fikir inqilabı”dır. Bu nöqtədə zamənənin təsiri görülməmiş deyildir. “Siyasi cəhətdən dəxi əsər bütün mühitini və sərindəki cərəyan oxşamaq üzrə olmaq üçün ta uzaqda - Ərəbistanda - açır və get-gedə tamaşaçılara yaxınlaşdırır və “Şeyx Sənan”ın “mayə”sini də “Turan”dan alır.”

H.Zeynalının bir sıra hallarda faciəyə ideoloji və siyasi mövqedən yanaşmasına baxmayaraq, “Şeyx Sənan” kimi mürəkkəb və fəlsəfi bir əsərə, əsasən, obyektiv qiymət vermişdir. Müəllifin faciədə izlədiyi bədii-fəlsəfi fikri duymuş, əsərdə izlədiyi fəlsəfi-estetik konsepsiyasının mahiyyətini anlamış və dərk etmişdir. Onun “Şeyx Sənan” faciəsi haqqında məqaləsini cavidşünaslıqda ilk sanballı tədqiqat əsəri hesab etmək olar.

Dramaturq “Şeyx Sənan” mənzum faciəsilə ədəbiyyat aləmində bir inqilab etdi, ədəbiyyat aləmini sarsıdan və heyrətə salan bir əsər yaratdı. Elə bir möhtəşəm əsər ki, onun cövhərini, fəlsəfi mahiyyətini, estetik konsepsiyasını eşq və məhəbbət təşkil edir. Faciə “Leyli və Məcnun”, “Xosrov və Şirin” poemaları, “Əsli və Kərəm” dastanı kimi oxucu və tamaşaçılarda xoş ovqat yaradır. Bəzi xüsusiyyətlərinə görə onlardan seçilir. Böyük şair-filosof və dramaturq Cavid islam dininə tapınan xalqların tarixində və ədəbiyyatında dərin kökləri olar multikulturalçılığı və tolerantçılığı Azərbaycan türk ədəbiyyatının ən yeni dövründə davam və inkişaf etdirir. Qədim və əski mövzunu müasirləşdirir, onu XX əsr Azərbaycan ədəbiyyatına gətirməklə, mövzuya yeni nəfəs, yeni fəlsəfi məzmun verir. İnsanın təbii-bioloji duyğularının din, təriqət, mövhumat, milli və dini ayrıseçkilik qarşısında nə qədər gücsüz, puç və sönük olduğunu canlı obrazların simasında göstərir. Məhəbbəti bir din və təriqət səviyyəsinə qaldırması, onu tərənnüm etməsi şairin ümumbəşəri məhəbbət ideyası və konsepsiyasına sadiqliyinin bədii və məntiqi təzahürü kimi meydana çıxır.

1926-1927-ci illərdə “Maarif və mədəniyyət” jurnalında çap edilmiş məqalə bu bölmələrdən ibarətdir: “Şeyx Sənan”ın doğuşu”, “Şeyx Sənan”ın müvəffəqiyyətinə səbəblər”, “Şeyx Sənan” dastanı, “İki Şeyx Sənan”, “Əsərin quruluşu” və s. Bu başlıqlardan H.Zeynallının dərin və hərtərəfli araşdırmalar apardığını, məqalənin tədqiqat xarakterli olduğunu aydın görmək olar. O, faciənin mənşəyi və doğuşuna təsir edən səbəblərdən danışarkən şairin irsi və ailə tərbiyəsinə, Naxçıvan, Təbriz, Urmiya, İstanbul, Tiflis həyatına xüsusi diqqət yetirmişdir. Onun ruhani ailəsindən çıxması, atasının onu molla etmək istəməsi, bu məqsədlə Təbrizə göndərməsi, burada böyük qardaşı Şeyx Məhəmməddən ərəb və fars ədəbiyyatını öyrənməsi ilə əlaqələndirmişdir. Şairin İstanbul və Tiflis həyatı haqqında ayrıca söz açmışdır. Gənclik illərində Racinin şeirlərini daha çox xoşladığını nəzərə çatdırmışdır. Yeri gəlmişkən deyim ki, 1920-ci illərdə Abdulla Şaiqdən sonra şairin həyatı haqqında daha geniş məlumatı H.Zeynallı vermişdir. O, dramaturqla şəxsən görüşmüş və ondan həyatına aid məlumatlar almışdır.

H.Zeynallı Cavidin 1914-cü ilə qədərki zəngin həyatını “Şeyx Sənan” faciəsilə təsadüfən əlaqələndirməmişdir. O, şairin uşaqlıq və gənclik illərində müxtəlif mahitlərdə aldığı təlim və tərbiyəni, təhsili faciənin mənşəyi və doğuşuna təsir göstərən amil və səbəblərlə birbaşa bağlı olduğunu iddia etmişdir. Onun hələ uşaqlıq illərində qələmə aldığı “Verdim o gün ki, zülfi-pərişanə gönlümü” misrası ilə başlanan qəzəlinə istinad edərək, Cavidin həyatı ilə Şeyx Sənanın həyatı arasında paralellər aparmış, onların həyat və xarakterində bir oxşarlıq görmüşdür. Uşaqlıq illərində “Gülçini-binəva idim, oldum müridişeyx.” yazan, özünü Şeyxin müridi hesab edən şairin faciədə özünü bir Şeyx Sənan, yaxud onun bir müridi kimi görməsi, ruhu etibarilə ona yaxın olması təbii idi. Çünki uşaqlıq və gənclik illərində o, qismən də olsa, sanki Şeyx Sənana məxsus bir həyat yaşamışdır. H.Zeynallı fikrini əsaslandırmaq üçün yazır: “Cavid pyesdə Şeyx Kəbirin diliylə Şeyx Sənanın tərcümeyi-halını anlatmaq istəyir. Şeyx Sənanın tərcümeyi-halı ilə özünün tərcümeyi-halı arasında bir oxşarlıq görür və Cavidin səpkisi bir az Şekspircəsinə olur.” Deməliyəm ki, Azərbaycan ədəbiyyatşünaslığında Cavid üslubu ilə Şekspir üslubu arasındakı oxşaqlığı ilk dəfə H.Zeynallı sezmişdir.

Şeyx Kəbirin:

- Səni annən doğurdu Turanda,
Yaşadın bir zaman da İranda.
...Lakin ən son yerin, zəki Sənan!
Olacaq son nəfəsdə Gürcüstan...

- misraları ilə başlanan monoloqu nümunə gətirən tənqidçinin fikrincə, həmin parçada “Ərəbistan yerinə” “istanbul deyilsə idi, tamamillə Cavidin gəzmiş olduğu yerlər olacaqdı”.

Bəlkə də! Bəlkə də Şeyx Sənan ilə Hüseyn Cavidin həyatı və taleyi arasında oxşarlıq axtarmaq və tapmaq mümkündür. Nə üçün? Ona görə ki, əgər Şeyx Sənan sufi Şeyx Kəbirin tələbəsi idisə, Cavid sufi Rza Tofiq və Tofiq Fikrətin tələbəsi olur. H.Zeynallı yazır:

“Molla və rövzəxan oğlu olan, sufiyanə və xalq ruhunda şeirlər söyləyən Rza Tofiqin şagirdi olan və İstanbul kimi dindar bir darülfünun dəstipərvərdəsi olan Cavud Tiflisə gəlir və burada Şeyx Sənan dastanı ilə tanış olur. Cavidi büsbütün təzyiqi altına alan bir ruhani, dindar, sufiyanə mühit və digər müvəqqəti də olsa belə ticarət mühiti (Urmiyada ticarətlə məşğul olduğu nəzərdə tutulur - İ.A.) Cavidi gəzdirə-gəzdirə Qafqazın ən gözəl bir şəhərində Şeyx Sənan dağı qarşısında saxlayır.”

Yeri gəlmişkən deyim ki, böyük öndərimiz M.Ə.Rəsulzadənin də sözügedən məsələ barəsində maraqlı müşahidələri vardır. O, “Əsrimizin Siyavuşu” əsərində yazır: “Azərbaycan gəcnliyi saf və səmimi bir niyyətlə Türk öyrətmənlərinin tələbəsi oldu. Çox keçmədi ki, Namiq Kamal Məhəmməd Hadini, Əbdülhaq Hamid Hüseyn Cavidi, Məhəmməd Əmin də Əhməd Cavadı oğulluğa qəbul etdilər.”

H.Zeynallının tədqiqat metoduna gəlincə, deməliyəm ki, o, İppolit Ten və b. Avropa nəzəriyyəçilərinin fikir və konsepsiyalarından faydalanmışdır. Cavid haqqında yazdığı məqalələrdə müqayisəli-tarixi və mədəni-tarixi metodlarla yanaşı, marksist-leninçi metodologiyadan da istifadə etmişdir. Mənim fikrimcə, o, “Şeyx Sənan” haqqında yazdığı məqalədə İppolit Tenin “qövmi” və “dini” nəzəriyyəsindən bəhrələnmiş, “irq” və “mühit” prinsiplərindən faydalanmışdır. Bu fikri təsdiq etmək üçün onun məqaləsində kifayət qədər dəlil-sübut tapmaq olar.

***(Davamı var)***